# Yeni fındıq bağları salınacaq

*Azərbaycan Prezidenti İlham Əliyevin kənd təsərrüfatının ixrac potensialı yüksək olan sahələrindən fındıqçılığın inkişaf etdirilməsi ilə bağlı verdiyi tapşırıqlar Qəbələ rayonunda da uğurla icra olunur.*



Cari ilin yaz aylarında rayonda 200 hektar sahədə yeni fındıq bağları salınıb. Payız mövsümündə isə rayon ərazisində daha 600 hektar sahədə yeni bağların salınması nəzərdə tutulur. Fındıq pöhrələrinin əkiləcəyi ərazilər müəyyənləşdirilib və artıq əkin kampaniyasına başlanılıb.

Hazırda rayonda mövcud fındıq bağlarının ümumi sahəsi 5727 hektardır. Bu bağların 1800 hektarı son iki ildə salınıb.

Ffındıq bağlarından 2017-ci ildə 7100 ton məhsul tədarük olunub.

**«Qəbələ»**

# Tütünçülüyün inkişafı prioritet sahədir

***Azərbaycanda tütünçülüyün inkişaf etdirilməsi üçün əlverişli iqlim şəraiti, zəngin ənənə və təcrübə mövcuddur. Yüksək ixrac potensialına malik olan tütünçülük uzun illər diqqətdən kənarda qalsa da, son illər ölkə rəhbərliyinin təşəbbüsü ilə yenidən dirçəldilməsinə başlanıb, bu gəlirli sahəyə maraq göstərənlərin sayı xeyli artıb.***

***Dövlətimizin başçısının regionların mövcud iqtisadi potensialından səmərəli istifadə edilməsi ilə bağlı verdiyi tapşırıq və tövsiyələrə uyğun olaraq, artıq digər ənənəvi sahələr kimi, tütünçülüyün inkişaf etdirilməsi istiqamətində də zəruri tədbirlər həyata keçirilməkdədir.***

Bu il rayonumuzda 70 hektar sahədə tütün əkilib. Becərmə işlərində 160 nəfərdən çox işçi çalışıb. Tütün sahələrinin 3 hektarı Kiçik Əmili kəndinin tütünçüləri, 7 hektarı Mamaylı və Bayramkoxalı kəndlərinin tütünçüləri, 60 hektarı isə fermer Fikrət Məmmədovun rəhbərlik etdiyi qurum tərəfindən ətraf kəndlərdən işçi qüvvəsi cəlb etməklə əkilmişdir.

Bu günə qədər tütünçülər 82 ton quru tütün istehsal edərək



satmışlar. Həmin tütünün 76 tonu Fikrət Məmmədovun qurumu, qalan 6 tonu isə rayonun digər tütünçüləri tərəfindən təhvil verilmişdir. Hazırda tütün qırımı və təhvili işləri davam edir.

Tütün qırımında hər gün 30 nəfərdən çox əməkçi iştirak edir. Gün ərzində onlar 1,5 - 2 ton yaş tütün yarpaqları toplayaraq təhvil verirlər.

Sahələrdə bol məhsul vardır. Tütünçülərin mövsümün sonunadək əlavə olaraq 60-70 ton yaş tütün təhvil verəcəkləri gözlənilir.

**Elmdar ŞƏRİFOV,**
**rayon kənd təsərrüfatı idarəsinin bitkiçilik sektorunun müdiri.**

# Payızlıq əkin sürətlə aparılır

Rayon əkinçiləri havaların əlverişli keçməsindən istifadə edərək payızlıq taxıl əkinini sürətlə davam etdirirlər. Məqsəd yağıntıların intensiv hal almasına qədər əkin kampaniyasını başa çatdırmaqdır. Bu payızda gələn ilin taxıl məhsulu üçün 20100 hektar sahədə taxıl əkilməsi nəzərdə tutulmuşdur. Noyabr ayının 14-ə qədər payızlıq əkin üçün 18175 hektar sahədə şum çıxarılmışdır ki, bu da nəzərdə tutulan sahənin 94 faizinə bərabərdir. Şum çıxarılmış sahə keçən ilin müvafiq dövrünə nisbətən beş min hektardan çoxdur. Noyabr ayının 14-ə 15220 hektarda payızlıq əkini aparılmışdır ki, bunun 10600 hektarı buğda, 4500 hektarı arpa sahəsidir. Əkilmiş sahənin həcmi keçən ilin müvafiq dövrünə nisbətən 2 dəfə çoxdur. Taxılın optimal müddətdə əkilməsi taxılçılarımızın gələn il də



bol məhsul əldə edəcəyinə əsas yaradır.

**«Qəbələ»**

# Arıçılığa diqqət artırılır

Respublikamızın iqtisadiyyatında arıçılıq mühüm yer tutur. Bu sahə ilbəil inkişaf edir. Ölkəmizdə arı ailələrinin sayı əvvəlki illərlə müqayisədə artırılaraq 238 minə çatdırılmışdır. Bu mühüm və gəlirli sahənin daha da inkişaf etdirilməsi üçün son illər bir sıra məqsədyönlü tədbirlər həyata keirilmişdir.



2020-ci ildə respublika üzrə arı ailələrinin sayının 310 minə çatdırılması proqnozlaşdırılır. Arı ailələrinin sayının artırılması ilə yanaşı , məhsuldarlığının yüksəldilməsi, damazlıq-seleksiya işlərinin yaxşılaşdırılması, istehsal olunan balın mərkəzləşdirilmiş qaydada qablaşdırılması və etiketləmə məsələləri də həyata keçirilməlidir.

Cənubi Qafqazda nektar verən bitki örtüyünün 61 faizinin Azərbaycanın payına düşdüyünü nəzərə alsaq respublikamızda bu sahədə böyük potensial imkanların və perspektivlərin olduğunu aydın görürük. Hər il ardıcıl olaraq arıçılıq məhsullarının sərgi-satış yarmarkaları keçirilir ki, bu da arıçıların maddi imkanlarının yaxşılaşmasına şərait yaradır.

Bu ilin noyabr ayında Bakı şəhərində keçirilmiş arıçılıq yarmarkasında 453 nəfər arıçı iştirak etmiş və 200 tona qədər arıçılıq məhsulları satılmışdır.

Satış yarmarkasında Qəbələ arıçıları da fəal iştirak etmişlər.

**Rais RƏŞİDOV,**
**«Qəbələ».**

# Maraqlı tədbir

***Rayonun ümumtəhsil məktəblərində və uşaq bağçalarında "Uşaq hüquqları aylığı" ilə əlaqədar silsilə tədbirlər keçirilir. "Uşaq hüquqları aylığı"-nın keçirilməsinin məqsədi BMT-nin Uşaq Hüquqları Konvensiyasının qəbul olunmasının ildönümü və 20 noyabr - Dünya Uşaqlar Günü ərəfəsində uşaqlara diqqətin artırılması, uşaq hüquqlarının qorunması vəziyyətinin daha da yaxşılaşdırılmasıdır.***



Noyabrın 3-də Zarağan kənd uşaq bağçasında ölkədə elan edilən aylıq çərçivəsində uşaq hüquqları mövzusuna həsr edilmiş maraqlı tədbir təşkil olunub.

Tədbirdə iştirakçılara Prezident İlham Əliyevin Sərəncamı ilə təsdiq edilən "Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramı"nın, o cümlədən uşaq hüquqlarının müdafiəsi ilə bağlı müddəaların uğurla həyata keçirildiyi, ölkəmizdə hər il uşaq hüquqları aylığının qeyd olunduğu bildirilib.

Rayonumuzda "Uşaq hüquqları aylığı"na həsr olunmuş silsilə tədbirlərin noyabrın 20-dək davam etdiriləcəyi qeyd olunub.

Tədbir uşaqların ifalarında hazırlanan maraqlı bədii hissə ilə başa çatıb.

**Günel QAZIYEVA,**
**Səhrab Ümuyev (foto).**
**"Qəbələ"**

*Sadə peşə adamları*

# Əlləri qızıl insanlar

***Dərzilər zərbi-məsəldə deyildiyi kimi yox, sözün əsl mənasında yüz ölçüb, bir biçirlər. Özlərinin dediyi kimi onların "çörək ağacları" iynə, sap və qayçıdır. Hər gün istifadə etdiyimiz geyimlərin yaradıcıları, onları tikib ərsəyə gətirən peşə adamlarını müasir dövrdə "modelyer", "dizayner" kimi müxtəlif adlarla çağırırsalar da, onların əsl adı dərzidir...***

Mərziyyə və Nizami Əzizovlar belə sənətkarlardandır. Onlar ömürlərinin 40 ilə qədərini bu peşəyə həsr ediblər. Peşəkar dərzi kimi Qəbələdə tanınan bu cütlük dediklərinə görə hələ lap uşaqlıqdan bu sənətə yiyələnmək istəyiblər. Ailələrində bu peşə ilə məşğul olan olmasa da dərzilik işi onların diqqətlərini çəkmiş, paltar tikməyi öyrənməyə can atmışlar. Elə bu arzu, bu istəklə də dərzilik sənətinə yiyələnmişlər.

Vaxtilə rayonun əksər adamları onların yanına gəlib



müxtəlif formada kostyumlar, qadın paltarları tikdirərdilər. Hətta verilən sifarişlər çox olduğundan bəzən həftələrlə onların növbəsinə düşə bilməyənlər olurdu. Lakin bu gün dərzilik sənətinə olan ehtiyac azaldığından onlar ticarət mərkəzlərinin birində icarəyə götürdükləri kiçik bir tikiş otağında öz xeyirxah işlərini böyük vurğunluqla davam etdirirlər.

Mərziyyə xanım deyir ki, dərzilik dəqiqlik sevən sahədir. Əgər hər hansısa bir paltarı tikirsənsə, onu fərqli tikməlisən. Hazırladığın paltarlarda müxtəlif naxışlardan, müxtəlif modalardan yaradıcılıqla istifadə etməlisən ki, səni bir dərzi kimi axtaranlar olsun. Dərzi həm də gərək öz zövqü ilə sifarişçinin zövqünü uyğunlaşdırmağı bacarsın.

Biz də bu yolda sizə uğurlar arzulayırıq, Mərziyyə xanım, Nizami usta!

**Günel TAPDIQQIZI,**
**Səhrab Ümuyev (foto).**
**«Qəbələ».**